**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№301/1** **12 iyun 2018-ci il**

**“Auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətini əks etdirən yarımillik (illik) hesabat forması və hesabatın tərtib edilməsinə dair Təlimat” barədə**

Auditorlar Palatası Şurasının “Auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətini əks etdirən yarımillik (illik) hesabat forması və hesabatın tərtib edilməsinə dair Təlimat” barədə 2018-ci il 18 may tarixli 300/1 nömrəli qərarının 1-ci bəndinə uyğun olaraq Standartlaşdırma, hesabatlılıq və təhlil idarəsi (E.İbrahimov, R.Cəfərli) tərəfindən Şura üzvlərinin irad və təklifləri nəzərə alınmaqla yenidən işlənilmiş və ictimai müzakirəyə çıxarılmış hesabat formasını və hesabatın tərtib edilməsinə dair Təlimatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətini əks etdirən yarımillik (illik) hesabat forması və hesabatın tərtib edilməsinə dair Təlimat” təsdiq edilsin (əlavə olunur).

2. Auditorlar Palatası Şurasının 2010-cu il 14 dekabr tarixli 214/7 nömrəli qərarı ilə təsdiq edilmiş “Sərbəst auditorların və auditor təşkilatlarının fəaliyyətini əks etdirən yarımillik (illik) hesabat forması və ona əlavənin tərtib edilməsinə dair Təlimat” qüvvədən düşmüş hesab edilsin.

3. Standartlaşdırma, hesabatlılıq və təhlil idarəsinə (E.İbrahimov, R.Cəfərli) tapşırılsın ki:

- bir həftə müddətində “Auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətini əks etdirən yarımillik (illik) hesabat forması və hesabatın tərtib edilməsinə dair Təlimat”ın sərbəst auditorlara və auditor təşkilatlarına təqdim edilməsini təmin etsin;
- cari ilin iyun ayında sərbəst auditorların və auditor təşkilatlarının rəhbərlərinin iştirakı ilə “Auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətini əks etdirən yarımillik (illik) hesabat forması və hesabatın tərtib edilməsinə dair Təlimat” barədə seminarın keçirilməsini təmin etsin;
- hesabat formasının və Təlimatın Palatanın internet səhifəsində yeni yaradılacaq “Auditorun şəxsi kabineti” elektron portalında yerləşdirilməsini təmin etsin.

4. Sədrin müşaviri F.Qarayevə, Hesabatlılıq və təhlil şöbəsinin müdiri R.Cəfərliyə tapşırılsın ki, üç gün müddətində bu qərarın, hesabat formasının və Təlimatın mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**